Ədalət.-2019.-20 iyun.-S..8.



*Ələsgər ƏLİOĞLU*

# HEKAYƏLƏR

## PAYA

Qaçhaqaç düşmüşdü.Köçdənləngimişdi Mirzə kişi.Əlindəki əsaya söykənə-söykənə arana sarı üz tutmuşdu...Dalda yollarla,dalda cığırlarla kəndin aşağısına çatmaqda idi ki,ona:"Dayan!..Tərpənmə!.." əmri verildi.Artıq qarşısını iki erməni yaraqlısı kəsmişdi.Bu yaraqlıların hər ikisi-Aşot da,Kamo da onun köhnə dostları idi...Buna görə azacıq da olsa,özündə bir təpər tapdı:

-AyAşot,Ay Kamo nədir,məni tanımadınız?..

Aşot çığırdı:

-Ara,yox, kimsən ki,səni də tanıyaq!?Tez ol ayağını çıxart!

-Aşot,biz özümüz ağırlıqda çörək kəsmişik.Bəs bunları hara qoyursan?..Dünən-srağa gün oğlun Vazgenin toyunda səninlə qoşa oynamırdıqmı!? Nədir, yoxsa yadından çıxıb!?

-Ara,qorxma,səninlə işimiz yoxdur.Amma ayağını çıxart!

Mirzə kişi əyilib ayaqqabını ayağından çıxarmaq istədi.Bu zaman Aşot irəli yeridi:

-Elə yox,ara,ayağını bütöv çıxart!

Mirzə kişi duruxub qaldı...Aşot irəli yeriyib onun sol ayağından yapışıb qanırdı.Beləlliklə, sol ayağının dizdən olan protezini çıxarıb əlində tutdu:

-Ara,bu liçnidi,tək ayaqla da gedə bilərsən.Artıq yük nəyinə lazımdı!?Bayaqdan sənə deyirəm ayağını çıxart,gözünü döyüb baxırsan.

-Aşot,namərdlik eləmə!Ayağımı özümə qaytar!Bu qarlı-şaxtalı gündə məni naümid qoyma!..

-Yox,ara,gerçəkli ayağını nemeslər bicib,bu yalançı ayağını da mən biçəcəyəm...

Aşot protez ayağı avtomatın ağzına verib çilik-çiıik elədi :

-Qorxma,ara,tək ayaqla da gedə bilərsən...Hələ əlindəki o əsanı da bəri ver. Di dayanma,get!..

Mirzə kişi duruxub qaldı...Əsasını verəndən sonra müvazinətini saxlaya bilməyib yerə çökdü.Aşot onun başının üstdən havaya bir neçə güllə buraxdı və çığırdı:

-Ara,xəbərdarlıq edirəm,getməsən,bu dəqiqə səni öldürəcəyəm!

Mirzə kişi qalxıb yerimək istədi.Ancaq bacarmadı.Səndələyib üzüüstə düşdü və iməkləməyə başladı...Aşotla Kamo dayanıb şaqqanaq çəkə-çəkə onun arxasınca baxdılar...

Kamo dedi:

-Aşot,onun kəlləsinə bir güllə çax,çıxaq gedək də...

Aşot:

-Ara,sənin başın xarab olub!? Onu öldürsək,bir yolluq canını qurtarmış olar.Qoy beləcə tək ayaq qalıb yolda-izdə eşələnə-eşələnə zülümlə ölsün,-deyə cavab verdi.

...Mirzə kişi çox çətinliklə sürünməyə başladı.Yolu belə başa vurmaq mümkün deyildi...Buna görə də ətrafa baxıb sakitlik hökm sürdüyünə əmin olduqdan sonra kəndin aşağısındakı son məhləyə sarı süründü.Bu məhlə onun ata ocağı idi.Özü kəndin yuxarısında ev tikdirəndən sonra bu məhlədə kiçik qardaşı qalırdı.O,bir təhər məhlənin çəpərindən bir nazık paya çəkib çıxardı. Çətinliklə də olsa,payaya söyklənə-söykənə yoluna davam etdi.

Mirzə kişi gah payaya söykənə-söykənə irəliləyir,gah da payanı qoltuğunun altda tutub iməkləyirdi.Əlləri və dizi qabıqdan çıxmışdı.Sanki damarlarında qan işləmirdi.Söz yox ki,bu yerişlə mənzil başına çox çətinliklə çatardı...Amma ümidini itirmirdi.Sanki həyatın şirinliyini indi hiss edirdi...

Mirzə kişinin taqəti tamam tükənmişdi...Bir yandan aclıq,bir yandan yorğunluq,bir yandan da yuxusuzluq daha onu boğaza yığmışdı...Çox çətinliklə nəfəs alırdı. Birdən arxadan at nalının taqqıltısı eşidildi...Ona yaxınlaşan atlı atılıb yerə düşdü:

-Sən kimsən belə?Burada neyləyirsən?Bıyy,sən ki,bizimkilərdənsən!..

Mirzə kişi bir güclə dilləndi:

-Hara gedirsən belə,eloğlu?

-Tərtərə.

Mirzə kişi özünü yığıb bu sözləri çox çətinliklə dilinə gətirə bildi:

-Daha heyim qalmayıb.Eloğlu,məni də Tərtərə çatdır!..Amma bu payanı da özünlə götür,burada atıb getmə!..

Onun gözləri gərildi.Nəsə demək istədi...Ancaq bacarmadı... Huşunu itirdi...

...Mirzə kişi gözlərini xəstəxanada açdı.O,çarpayısının böyründə əyləşmiş kişiyə nəzər yetirərkən onu tanıdı:

-Qardaş,payanı da gətirdinmi!?

-Narahat olma, gətirmişəm.

-Bilirsən,qardaş, həmin paya mənə doğma yurddan əmanətdir. Qoltuq ağacı əvəzi ata ocağımın çəpərindən çıxarmışam.Qayıdanda əvvəlcə erməni quldurlarına,sonra da öz yerinə çalacam!..

## İNKİR-MİNKİRİ QABAQLAYANLAR

**(”Nizibala Doymazlı” serialından)**

Məmləkət rus-bolşevik qoşunları tərəfindən işğal ediləndən sonra Meydanalının sümüyü şırtığa gedirdi. Təzə hakimiyyətə xoş gəlsin deyə adının yarısını da ruscaya çevirərək,özünü hamıya Ploşadalı kimi təqdim edirdi...Deyirdi ki,bu adı mənə məşhur inqilabçılardan biri verib.Sadəcə olaraq istəmişəm ki, camaat başa düşsün deyə məni Meydanalı çağırsınlar...

Meydanalının hər addımda gözü darı dəlirdi...Kimdən xoşu gəlmirdisə ”baqaja” qoyurdu.Həmin adam bircə günün içində kənddən yoxa çıxırdı...Qurban gedənlərin sayı gündən-günə artmaqda idi...

Adamlar daha Meydanalının izinə düşmüşdülər. Artıq hamı da bilirdi ki,”vətən xainləri” çıxarılanların baiskarı odur.Günlərin birində Meydanalının başsız meyiti göl kənarından tapıldı...Anışdırmaq olmurdu ki,bu hadisə kəndin ürəyincədir,yoxsa yox...Kimi dodaqaltı qımışır,kimi də üzünü qəmli göstərirdi...

Meydanalının dirisi kimi, ölüsü də kəndə qara gün gətirmişdi.Neçələrini tutub haqq-nahaq damlamışdılar...Döyüb-öldürürdülər ki,deyin görək dağdan ağır bu kişini hansınız qətlə yetirmisiniz?..

Axır ki,onun başsız meyitini yuyata götürdülər.İş kəndin mürdəşiri kimi tanınmış Munis kişiyə və yaşca ondan cavan Sarıya tapşırıldı. Paltarı soyundurularkən Meydanalının qoltuğundan yerə bir kağız parçası düşdü.Munis kişi kağız parçasını yerdən götürüb dönə-dönə gözdən keçirdi.Bu, bir qara siyahı idi.Siyahıda Munis kişinin də adı vardı...

Munis kişi: ”Ay sənin gorunu...” -deyib istədi ki,yuyat yerindən çıxsın,görəcəyi işdən boyun qaçırsın...Ancaq bu da çox təhlükəli idi.Sonra bitin dümbəyinə birə yaxardılar...Könülsüz-könülsüz köməkçisi Sarıya dilləndi:

-Ayə,o qaynar sudan əndər görək.

Sarı duruxub qaldı:

-Bəs suyu bir az ılıqlamayım ?

-Yox,a kişi,nə danışırsan!? Qoy İnkir-Minkirdən qabağa biz düşək.Qır qazanı sonra gec olar...Girəvədir, gəl bu oğracı bəri başdasn elə özümüz yandıraq!..

## NİZİBALANIN SƏHVİ

**(”Nizibala Doymazlı” serialından)**

Nizibala Doymazlı qabaqlar bank işçisi olduğu üçün pulun qəlp olub-olmadığını bircə barmaq toxundurmqla bilərdi.Pul alış-verişində onu aldatmaq müşkül məsələ idi...Pul görəndə gözü işığa gəlirdi.Pulu dədəsindən də çox istəyirdi.Əlacı olsaydı sənədlərində Nizibala Pul oğlu Doymazlı yazdırardı.Bir sözlə beynini pul tamamilə zəbt etmişdi...

O, ali təhsilli iqtisadçı olsa da, yaşadığı məmləkətin regionlarını və coğrafi-iqtisadi mövqeyini bir-birindən çətinliklə seçirdi..Desəydin ki,Daşkəsəndə yaxşı nar əmələ gəlir,başını bulayardı.Desəydin ki,Kəlbəcər əsl pambıq məkanıdır,cavabında ”bəli” eşidərdin.Desəydin ki,Gədəbəy düyüsü ələ düşməz,düşünüb-daşınmadan ”elədir ki var” deyərdi...

...Günlərin birində Nizibalanı Ağstafaya mötəbər bir məclisə dəvət etdilər. Axır ki,söz qonağa verildi. Ağstafa sözü onun dilinə yaxşı yatmadığından kürsüdə çaşdı və ”quş” buraxdı:

-Sizi xoş gördük,ay astaralılar!..

Nizibala əllərini bir-birinə vurub bu torpağa istəyini ilkin olaraq özü alqışlamaq istədi.Təəssüf ki,zalı alqış sədaları əvəzinə,şaqqanaq bürüdü...Nizibala heç nə anlamadı.Duruxa-duruxa qaldı...Öz-özünə düşündü:-Mən ki,bu elə öz məhəbbətimi bildiririm,nıyə gülüşürlər!?

Bu anda zaldan səs gəldi:

-Müəllim,siz Astarada yox,Ağstafadasınız!..

Nizibala anidən buraxdığı səhvi düzəltmək istədi.Bir güclə bu sözləri dilinə gətirdi:

-Olsun Ağstafa!Nə fərqi var ki!?

Yenə də zaldan səs eşidildi:

-Fərqi odur ki,Ağstafada nə limon yetişdirlir,nə də çay...

Nizibala yazıq bir görkəm aldı:

-Yəni yetişdirmək olmaz ki!?

Sualı cavabsız qaldı...Ortalığa ani bir sükut çökdü. Nizibala bilmədi ki,bəlkə də məmləkətin hər guşəsində istənilən nazneməti yetişdirmək mümkün olar,ancaq onun özünü yox...